# Festival sona yaxınlaşır





**1 mart 2019-cu il tarixində start götürən "Boş məkanın dolğunluğu-2" Eksperimental tamaşalar festivalının ilk 6 günü arxada qaldı. Azərbaycan Teatr Xadimləri İttifaqının Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi ilə birlikdə təşkil etdiyi görkəmli rejissor Vaqif İbrahimoğlunun xatirəsinə həsr olunmuş festivalın açılışı və ilk tamaşası YUĞ Teatrının səhnəsində baş tutdu.**

Açılış mərasimi Azərbaycan Teatr Xadimləri İttifaqının sədri, Xalq artisti, professor Azər Paşa Nemətin giriş sözü ilə başladı. YUĞ Teatrının direktoru İslam Həsənov və baş rejissoru Əməkdar incəsənət xadimi Mehriban Ələkbərzadə qonaqları salamlayaraq, festivalın işinə uğurlar arzuladı.

Daha sonra A.B.Kasaresin əsəri əsasında hazırlanmış "Qəbir qazma üsulu" tamaşası nümayiş olundu. Növbəti tamaşa S.Haqverdiyevanın hekayələri əsasında səhnələşdirilmiş "Metamorfoza" tamaşası oldu.

Tamaşaçılar festivalın ikinci günündə də YUĞ Teatrının tamaşalarını izlədilər. Əvvəlcə V.Klimin pyesi əsasında hazırlanmış "Medeya.Sekvensiya-01" tamaşası, sonra isə T.Vahidin hekayələri əsasında səhnələşdirilmiş "Quş dili" tamaşası göstərildi.

Festivalın üçüncü gününün tamaşaları AzTXİ-nin böyük səhnəsində nümayiş olundu. S.Mrojekin pyesi əsasında İsa Əsədovun quruluş verdiyi "Açıq dənizdə" tamaşasında rolları Qurban Məsimov, Anar Seyfullayev, Manaf Dadaşov, Müşfiq Əliyev, Rahib Axundov ifa edirdi. Üçüncü günün sonuncu tamaşası "Human" müstəqil teatrının Sergey Yeseninin əsərləri əsasında səhnələşdirilmiş "Qara adam" monotamaşası oldu. Tamaşanın rejissoru və ifaçısı Şamil İbrahimovdur.

Tamaşadan sonra festivalın teatrşünaslardan və mədəniyyət yazarlarından ibarət ekspert qrupunun və tamaşaların yaradıcı heyətlərinin iştirakı ilə müzakirə keçirildi.

Növbəti gün festivalda Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin tamaşaları nümayiş olundu. Ümumiyyətlə, ADMİU "Boş məkanın dolğunluğu-2" Eksperimental tamaşalar festivalına beş tamaşa ilə qatılır. Mart ayının 4-də saat S.Vurğun adına Azərbaycan Dövlət Rus Dram Teatrında 14:00-da "Səmavi" tamaşası nümayiş olundu. Müasir Rusiya dramaturqları A.Şipanov və A.Abrosimovun "Səmavi və ya onun həyatından dörd saat" pyesi əsasında hazırlanmış tamaşanın quruluşçu rejissoru və xoreoqrafı ADMİU-nun Teatr sənəti fakültəsinin rus bölməsinin tələbəsi Raulya Türkkandır. Tamaşada ADMİU-nun Aktyor sənəti ixtisası üzrə 4-cü kurs tələbəsi Milana Sokolenko çıxış edib.

Günün növbəti tamaşası Kamal Abdullanın "Unutmağa kimsə yox" pyesi əsasında hazırlanan eyniadlı tamaşa oldu. Saat 18.00-da Teatr Xadimləri İttifaqının Böyük səhnəsində nümayiş olunan tamaşada Teatr sənəti fakültəsinin üçüncü kurs tələbələri Tunar Əlizadə (Aspirant), Çimnaz Bağırova və Oksana İsgəndərova (Qadın, Ana), Əlirza Kənani (Arxadaş), Səbinə Məmmədova (Quzu (Qağayı), Elnur Tağıyev (Yekəpər, Yaddaş), Rəhimə Abdinova (Əntər, Əzab), Asim Mərdanov (Qoca), Fərid Baxşıyev (Feldşer) iştirak edirdilər. Tamaşanın quruluşçu rejissoru qrupun kurs rəhbəri Əməkdar artist Yaqut Paşazadədir. Tamaşada səhnə danışığı üzrə hazırlıq dosent Nadir Hüseynova, xoreoqrafiya işi isə Səbinə Məmmədovaya məxsusdur. "Unutmağa kimsə yox" pyesi tələbələrin təqdimatında qəmli və həzin, sentimental və kədərli, oyunabənzər bir həyat kimi təqdim olundu.





Festivalın 5-ci günündə AzTXİ-nin böyük səhnəsi yenə də tələbələrin ixtiyarında idi. Əvvəlcə saat 14.00-da ADMİU-nun Dram teatrı və kino aktyoru ixtisasının III kurs tələbələri Ə.Haqverdiyevin "Yeyərsən qaz ətini, görərsən ləzzətini" pyesi əsasında hazırlanmış "Qara oyun" tamaşasını təqdim etdilər. Xalq artisti Məmmədsəfa Qasımovun kursunun ifasında hazırlanan tamaşa festivalın ekspert qrupu və tamaşaçılar tərəfindən maraqla qarşılandı.

5-ci günün növbəti tamaşası isə saat 18.00-da nümayiş olunan "Lənkəran xanının vəziri" oldu. M.F.Axundzadənin eyniadlı komediyası əsasında hazırlanmış tamaşada Əməkdar artist Gülşad Baxşıyevanın rəhbərlik etdiyi 4-cü kurs Dram teatrı və kino aktyorluğu ixtisasının tələbələri çıxış etdilər.

Mədəniyyət və İncəsənət Universitetinin tələbələrinin ifasında nümayiş olunan sonuncu festival tamaşası Maqsud İbrahimbəyovun eyniadlı əsərinin motivləri əsasında hazırlanmış "Kərgədan buynuzu" oldu. Tamaşaya Dram rejissoru ixtisasının rus bölməsinin IV kurs tələbələri Fəridə Nesterenko, Bella Klimaşeva, Yuriy Omelçenko, Raulya Rzayeva, Cahandar Cəfərli və Tamerlan Əsədov quruluş veriblər.

ADMİU-nun Ədəbiyyat və dillər kafedrasının müdiri, filologiya elmləri doktoru, professor Fəridə Səfiyevanın layihəsi əsasında hazırlanan tamaşada Teatr sənəti fakültəsinin Teatr və kino aktyoru ixtisasının rus bölməsi üzrə II və IV kurs tələbələri Samirə Rüstəmova, Mir Qabil Əkbərov, Turanə Heydərli, Mariya Dubovitskaya, Milana Sokolenko, Zaur Terequlov, Yuri Omelçenko, Səbinə Rzayeva, Cohar Abdullayev, Elnur Rzayev, Ümid Ababszadə, rejissor tələbələr Cahandar Cəfərli, Tamerlan Əsədov, eləcə də S.Vurğun adına Rus Dram Teatrının aktyoru, Əməkdar artist Maqsud Məmmədov çıxış edir.

Və nəhayət, mart ayının 6-da - festivalın 6-cı günündə saat 19.00-da "SAFAT" Teatrının "Mənə axtarışında" tamaşası nümayiş olunub. İlqar Safatın quruluşunda hazırlanan tamaşada Xalq artistləri Lüdmila Duxovnaya, Mabud Məhərrəmov, aktyorlar Azər Aydəmir və Rumiyə Ağayeva çıxış etdilər. Yəhudi dramaturqu İdo Netanyahunun əsəri əsasında hazırlanan tamaşa loqoterapiyanın banisi psixoloq Viktor Franklenin həyatından bəhs edir.

Tamaşadan sonra festivalın teatrşünaslardan və mədəniyyət yazarlarından ibarət ekspert qrupunun və tamaşaların yaradıcı heyətlərinin iştirakı ilə nöbəti müzakirə keçirildi. Müzakirədə son üç gün ərzində nümayiş olunan tamaşalar təhlil olundu, yaradıcı heyətlə fikir mübadiləsi aparıldı.





